# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

6 noyabr 2025-ci il, cümə axşamı
№ 202 (7029)
Qiymıti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## Zəfər ayının 6-cı günü

# Azərbaycan elminin dünəni, bu günü və sabahı



Bax səh. 2

# Təbii resurslardan texnoloji inkişafa...

Bax səh. 3

## Milli Məclisin Zəfər Günü ilə bağlı bəyanatı...



Bax səh. 3

## Prezident Fərman verdi

### Məhkəmə ekspertizası tarixində elektron xidmətlər dövrü...

Bax səh. 4

## Genişlənmə siyasətinin yeni parametrləri...



Bax səh. 7

## Əlaqələr inkişaf edir...

### Azərbaycan və Əlcəzair hökumətləri arasında Birgə Komissiya yaradılıb

Bax səh. 4

## Sərmayələrin yeni gündəliyi

Bax səh. 5

## Ölkənin iqtisadi qüdrətini artıran siyasət

Bax səh. 6

## Kalininqrad üzərində “qara buludlar”...



Bax səh. 6

# Qardaşlıq, dostluq münasibətlərimiz genişlənir

## İlham Əliyev Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Əbu-Dabi İnkişaf Fondunun Baş direktoru, Əbu-Dabi İxracat Ofisinin (ADEX) İcraiyyə Komitəsinin sədri Məhəmməd Saif Əl-Süveydi, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad və Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun Baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar daxildir.

Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların xüsusilə indiki dövrdə - Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-tikinti işləri apardığı zaman ölkəmizdə sosial infrastrukturun inkişafı ilə bağlı layihələrə dəstək vermək niyyətini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar qonaqların təmsil etdikləri maliyyə institutları və ölkələrin xalqları ilə qardaşlıq, dostluq münasibətlərimizi genişləndirir.

Azərbaycanda əsas infrastruktur layihələrinin artıq tamamlandığını deyən dövlətimizin başçısı su, nəqliyyat və digər sahələr üzrə dövlət proqramlarının icra edildiyini və gələcəkdə də müxtəlif istiqamətlər üzrə dövlət proqramlarının qəbul olunacağını vurğuladı.

Görüşə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına təşəkkür edən İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir işğaldan azad edilmiş Qarabağda, Şuşada olmaqdan məmnunluğunu bildirdi, orada aparılan işlərin dərin təəssürat hissi doğurduğunu dedi.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı, ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühitinə toxunuldu, əməkdaşlığın perspektivləri müzakirə edildi. Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan elminin dünəni, bu günü və sabahı

**Müasir dünyada hər bir dövlətin, xalqın inkişafı böyük dərəcədə elmin səviyyəsi ilə ölçülür. Azərbaycan elminin məbədi sayılan Milli Elmlər Akademiyası artıq 80 illik yubileyini qeyd edir. Ötən 80 ildə böyük yol keçilib, güclü kadr potensialı formalaşıb, alimlərimiz öz axtarışları və kəşfləri ilə ölkəmizin inkişafına dəyərli töhfələrini veriblər. Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında keçilən şərəfli yolu xatırlatmaqla elmimizin uğurlarından məmnunluğunu bildirib, həmçinin yeni çağırışlar dönəmində qarşıda duran vəzifələrə diqqət çəkib.**

## Elmin və alimlərin böyük hamisi



Azərbaycan Elmlər Akademiyası 27 mart 1945-ci ildə təsis olunub. 31 mart 1945-ci ildə Akademiyanın ilk ümumi yığıncağı keçirilib. Ötən dövrdə Azərbaycan elmi bugünkü yüksək səviyyəyə çatanadək bir sıra mərhələlərdən keçib. Bunların sırasında böyük siyasətçi Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illər elmimizin inkişafı, milli kadrlar ordusunun formalaşması baxımından xüsusilə fərqlənir. Məlumdur ki, Heydər Əliyev respublikamıza ideoloji baxımdan tamam fərqli qütblərdə dayanan iki ictimai-siyasi formasiyada - keçmiş sovet dönəmində və müstəqillik illərində rəhbərlik edib. Keçmiş ittifaqda ideoloji çərçivələr var idi, milli baxışlar, milli təəssübkeşlik yolverilməz sayılırdı. Lakin 1969-cu ildən Azərbaycana rəhbərlik edən Heydər Əliyev sərt ideoloji çərçivələri aşmaqla xalqın özünüdərkinə, milli intibaha vəsilə ola biləcək məqsədyönlü fəaliyyətlər reallaşdırmağa nail olub. Onun diqqət və qayğısı sayəsində respublikamızda, necə deyərlər, qaynar təhsil mühiti yaranmışdı. Heydər Əliyev bütün səviyyələrdə təhsilə əlçatanlığın təmin olunmasından ötrü güclü maddi-texniki bazanın yaradılmasına xüsusi diqqət yetirib. Xatırladaq ki, ötən əsrin 70-80-ci illərində paytaxtda və regionlarda 800-dən çox yeni məktəb binası tikilərək istifadəyə verilib, ali məktəblərin sayı 12-dən 17-yə çatdırılıb, tələbə kontingenti 70 mindən 100 minə qədər artıb. Eləcə də məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilib. Təhsillərini başa vurduqdan sonra Vətənə dönən həmin gənclər uzun illər ərzində milli kadrlar potensialının özəyini təşkil ediblər.

Sonradan tale elə gətirdi ki, Azərbaycanın müstəqilliyini qorumaq missiyası da Heydər Əliyevin üzərinə düşdü. 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-"Müsavat" cütlüyünün bir illik səriştəsiz idarəçiliyi respublikamızı uçurumun kənarına kətirib çıxartmışdı. Belə çətin vəziyyətdə xalq seçimini edərək təkidlə o dövrdə Naxçıvanda yaşayıb çalışan Heydər Əliyevin respublikanın rəhbərliyinə gəlməsini istədi. Xalqın səsinə səs verən Heydər Əliyev ikinci dəfə respublikanın rəhbərliyinə gəlməklə müstəqilliyimizin süqut etməsinin qarşısını aldı, ölkədə sabitlik yaratdı və gələcək inkişafın əsasını qoydu. Prezident İlham Əliyev bəhs olunan çıxışında o dövrün kədərli mənzərəsini xatırladıb. Həmin illərdə respublikamızın vəziyyəti ağır idi. Ölkə işğala məruz qalmışdı, bir milyondan artıq insan ev-eşiyini tərk edərək qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü. Eyni zamanda, ölkədə vəsait qıtlığı son həddə çatmışdı, xəzinə tamam boş idi, iqtisadiyyat tənəzzülə uğramışdı. Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi onda idi ki, O, hətta çətin vəziyyətdə belə alimlərə, elmə, təhsilə qayğısını əsirgəmirdi. AXC-"Müsavat" iqtidarı dönəmində elm, təhsil sahəsində də durğunluq yaranmışdı. Ögey münasibətə dözməyən bir sıra alimlər və mütəxəssislər ölkəni tərk etmişdilər. İş o yerə çatmışdı ki, hətta Elmlər Akademiyasının ayrı-ayrı institutlarının bağlanması, onların yerləşdikləri binaların kommersiya qurumlarına verilməsi təhlükəsi yaranmışdı. Belə acınacaqlı vəziyyətdə respublikanın rəhbərliyinə qayıdan Heydər Əliyevin ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Elmlər Akademiyasında keçirməsi təsadüfi deyildi. "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, elm inkişaf etməlidir", - deyə Heydər Əliyev həmin görüşdə qətiyyətlə bildirib.

Ulu Öndərin belə qətiyyətli mövqeyi alimlərimiz, elmi müəssisələrin kollektivləri üçün bir ümid işığına çevrildi. Ölkədə təhsil islahatlarına start verildi. Qeyd etmək xoşdur ki, bu islahatların aparıcı qüvvəsi 1969-1982-ci illərdə Heydər Əliyevin himayəsi altında keçmiş ittifaqın qabaqcıl ali məktəblərində yüksəksəviyyəli təhsil almış gənclər idilər.

Heydər Əliyev 1997-ci il yanvarın 31-də Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlər qrupunu qəbul edərək, elm sahəsində islahatların həyata keçirilməsinin zamanı çatdığını bildirib. Həmin tarixi görüşdə Heydər Əliyevin verdiyi dəyərli tövsiyələr elmin strateji inkişaf və islahatlar konsepsiyasının əsasını təşkil edib. Heydər Əliyev 15 may 2001-ci il tarixində mühüm bir Fərman imzalayıb. Həmin Fərmanla Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilib. Ulu Öndərin Azərbaycan elminin inkişafı naminə atdığı mühüm addımlardan biri də 2002-ci ildə AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında tarixi Sərəncam imzalaması olub.

Əlbəttə, bir yazı daxilində Ümummilli Liderimizin ölkəmizdə elmin, təhsilin inkişafına göstərdiyi qayğını bütünlüklə əhatə etmək mümkün deyil.Prezident İlham Əliyevin bildirdiyi kimi, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi.

## Elmə, təhsilə qayğı siyasətində varislik

Uğurların qazanılması üçün dövlət siyasətində varisliyin təmin olunması mühüm şərtdir. Azərbaycanın xoşbəxtliyi ondadır ki, Heydər Əliyevin əsasını qoyduğu siyasət sonrakı mərhələdə də eyni ardıcıllıqla davam etdirilir. Prezident İlham Əliyev çıxışında ölkəmizdə elm sahəsində də dövlət siyasətinin ardıcıllığının təmin edildiyini vurğulayaraq deyib: "Təbii ki, illər keçdikcə, Azərbaycan inkişaf etdikcə bu vəsait daha böyük həcmdə ayrılır. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Mənim prezidentlik dövrümdə də bu istiqamətdə, yəni Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparılır".

Son iyrimi ildən artıq müddətdə Prezident İlham Əliyevin imzaladığı mühüm sənədlər əsasında həm təhsildə, həm də elm sahəsində genişmiqyaslı islahatlar həyata keçirilib. İndiyədək Azərbaycan gənclərinin dövlət vəsaiti hesabına dünyanın qabaqcıl ali təhsil müəssisələrində təhsil almalarını özündə ehtiva edən bir neçə Dövlət Proqramının icrası uğurla tamamlanıb. Hazırda "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" həyata keçirilir. 2025-2026-cı tədris ili üçün keçirilən müsabiqənin nəticələrinə əsasən 356 nəfər namizəd magistratura səviyyəsi üzrə müvafiq Seçim Qaydalarına aid meyarlara uyğun olaraq Dövlət Proqramına qəbul olunub və proqram iştirakçısı adını qazanıb. Nəticə etibarı ilə, 2025/2026-cı tədris ili üzrə Dövlət Proqramı çərçivəsində 125 bakalavriat, 356 magistratura və 19 doktorantura səviyyəsində olmaqla, ümumilikdə 500 nəfər xaricdə təhsil almaq hüququ qazanıb.

Paralel şəkildə, ölkəmizdə elmin inkişafını hədəfləyən çoxsaylı sənədlər imzalanıb və maddi-texniki baza davamlı olaraq möhkəmləndirilib. Böyük elmi kitabxananın, Milli Ensiklopediya üçün yeni binanın inşası, həmçinin elmi-tədqiqat institutlarının yüksək səviyyədə təmiri və avadanlıqlarla təchiz edilməsi bu qəbildən olan tədbirlər sırasındadır. 2009-cu ildə Elm Fondu yaradılıb, elmin inkişafı üzrə Milli Strategiya, müvafiq Dövlət Proqramı, "Elm haqqında" Qanun qəbul edilib. Prezident İlham Əliyev 18 mart 2025-ci il tarixdə "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Bütövlükdə, elmin inkişafını hədəfləyən tədbirlərin siyahısı çox uzundur.

*Mübariz ABDULLAYEV*



# Təbii resurslardan texnoloji inkişafa...

## Qeyri-neft sektoru inkişafın əsas sütununa çevrilir

Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı ölkəmizdə yürüdülən mükəmməl iqtisadi siyasətin milli inkişafın təmin edilməsində və qazanılan uğurların təmin olunmasında mühüm rol oynadığını bildirdi. Dövlət başçısı iqtisadi göstəricilərimizin çox müsbət olduğunu vurğulayaraq elm ictimaiyyəti və iqtisadiyyatda 85 faiz paya malik olan özəl sektor təmsilçilərinə bir sıra mesajlarını da çatdırdı.

***Nədir bu mesajlar?***

Azərbaycanda iqtisadi inkişafın uzun illər əsas sütunu neft sektoru və ya eneji amili olub, son illərdə ümumi daxili məhsulun (ÜDM) tərkibində neft və qazın çəkisi aşağı düşür, bunun başlıca səbəbi isə hasilatın obyektiv səbəblərə görə aşağı düşməsi, qlobal bazarlarda enerji qiymətlərindəki dəyişkənliklərdir. Ancaq buna baxmayaraq iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsinə çevrilən qeyri-neft sektoru milli inkişafın dayanıqlılığını təmin etməkdədir. Belə ki, 2025-ci ilin 9 ayında Azərbaycanda 1,3 faiz artan ÜDM-in tərkibində qeyri neft-qaz sektorunda 2,9 faiz dinamika qeydə alınıb. Bu dövrdə neft-qaz sektorunda isə eləvə dəyər 1,9 faiz azalıb. Bu o deməkdir, ki, qeyri-neft sektorundakı artım ümumi iqtisadi artımı 2 dəfə üstələyir. Bu, qeyri-neft sektorunun iqtisadi inkişafda əsas drayverə çevrildiyini təsdiqləyir.

Göründüyü kimi, neft sektorundakı azalmaya rəğmən, qeyri-neft sektoru hesabına ümumi iqtisadi artım tempi qorunub saxlanılır.

### İntellektual potensial tükənməz sərvətdir

Dövlət başçısı bu məsələyə xüsusi yanaşmaqla, iqtisadi inkişafın müasir bazasının və gələcək tərəqqinin birbaşa qeyri-neft amilinə söykənəcəyini, təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensial, texnoloji-elmi inkişafla irəliyə getməyin mümkünlüyünü diqqətə çatdırır. Vurğuladığı kimi təbii resurslar bizim üçün sadəcə olaraq, bir vasitədir, bir imkandır. “Biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Təbii sərvətlər tükənəndir, tükənməz sərvət isə intellektual potensialdır”.

Bu mesajlar iqtisadi sektorla bağlı real vəziyyəti düzgün qiymətləndirmə və optimist yanaşma olmaqla bərabər, biznes cəmiyyətini, elm sektorunu daha fəal olmağa dəvət edən ünvanlı tövsiyədir. Bu o deməkdir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı islahatları dərinləşdirən dövlət yaratdığı bu imkanlardan sahibkarların, iqtisadi strukturların, onlarla birgə işləməli olan elmi tədqiqat institutlarının daha çox faydalanmasını istəyir. Hökumət hesab edir ki, bu sağlam iqtisadiyyatdan, yaradılmış əlverişli imkanlardan daha çox istifadə etmək, prioritetləşən sahələrə xüsusi diqqət artırmaq və neftdənkənar sahələrin əsas bölmələri olan yeni sənaye və rəqəmsal quruculuğa töhfə vermək lazımdır. Özəl sektor və elm ictimaiyyəti Azərbaycan hökumətinin qəbul etdiyi dövlət proqramlarının və inkişaf konsepsiyalarının prioritetlərinə uyğun olaraq öz fəaliyyətlərini həmin sahələrə fokuslamalı, daha işgüzar olmalı, qlobal rəqabətdən geri qalmamalıdır.

### Ortamüddətli dövr üzrə gözləntilər müsbətdir

İmkanlar kifayət qədər böyükdür, bu gün qeyri-neft sektoru Azərbaycan iqtisadiyyatının əksəriyyətini təşkil edir. Qeyri-neft sektorunun artmasında əsas amillər biznes sektorunun fəallığının yüksəlməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdən kənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər, bölgələrdə yeni müəssisələrin yaradılmasıdır. Bu sahənin şaxələndirilməsi sayəsində güclü sənaye, nəqliyyat, tikinti, turizm, aqrar-sənaye, xidmət bölmələri yaradılıb. Rəqabətin təmin edilməsi qeyri-neft sahələrinə xarici investorların da marağını artırıb və sərmayə qoyuluşları yüksəlir. Dünyanın aparıcı reytinq agentlikləri mövcud mənzərəni dəyərləndirərək ölkəmizin kredit reytinqimizi yüksəldib.

Qeyri-neft yığımları Azərbaycanın maliyyə dayanıqlılığı üçün də əsas bünövrəyə çevrilib və iqtisadiyyatımızın sağlamlığını gücləndirib. Fiskal daxilolmaların artımı fonunda xarici borcumuz azalaraq ÜDM-in 6 faizini təşkil edir. Hazırda borcun milli gəlirdə faiz nisbətinə görə, Azərbaycan dünyada ən yaxşı və əlverişli ölkələr qrupunda yer alır. Strateji valyuta ehtiyatlarımız 80 milyard dolları ötməklə xarici borcumuzu 16 dəfə üstələyir.

Qlobal maliyyə institutlarının qeyri-neft sahəsi ilə bağlı ortamüddətli dövr üzrə gözləntiləri də müsbətdir. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankının və digər qurumların proqnozlarına görə, ortamüddətli dövrdə Azərbaycan iqtisadiyyatında artımı formalaşdıran mənbə kimi mühüm rol oynayan qeyri-neft sahəsi iqtisadi artımın və fiskal daxilolmaların əsas drayverləri olacaq. Ortamüddətli perspektivdə neftdənkənar sahələrin illik artım tempi 3-3,5 faiz təşkil etməklə ümumi inkişafı təmin olunmasına töhfə verəcək.

### Qarabağ və Şərqi Zəngəzur inkişafın ünvanına çevrilir

Bu gün əsas investisiya layihələrinin istiqaməti olan Qarabağ və Şərqi Zəngəzur həm də qeyri-neft sektorunun əsas ünvanlarından biridir. Ələlxüsus da bərpaolunan enerji növlərinin perspektivlərinə görə, əlverişli bölgədir. Bu regionda son 5 il ərzində 30-dan çox su elektrik stansiyası inşa edilib ki, onların toplam generasiya gücü 300 meqavatdan çoxdur. Günəş və külək elektrik stansiyalarının inşası gedir. Bu yaxınlarda Cəbrayıl rayonunda 100 meqavatlıq iki stansiyanın təməli qoyulub. Həmin stansiyaların yaxınlığında 240 meqavat gücündə üçüncü Günəş elektrik stansiyası inşa edilir. Bütövlükdə, 2030-cu ilə qədər Günəş, külək və su elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatdılacaq ki, Azərbaycanın “yaşıl enerji” ölkəsinə çevrilməsini təmin edəcək.

Həmçinin Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır. Zəngin qeyri-neft resursları olan qızıl, gümüş, mis yataqları, polimetal yölkəmizə böyük dividentlər gətirəcək.

Bir sözlə, qeyri-neft sektoru üçün mənbələr kifayət qədər genişdir və Azərbaycanın gələcək inkişafının əsas sütunu kimi bu sahənin dayanıqlılığı daha da möhkəmlənəcək.

***E.CƏFƏRLİ***

# Milli Məclisin Zəfər Günü ilə bağlı bəyanatı...

## Xarici ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına göndərilib

8 Noyabr xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan şanlı gündür. Prezident, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə 30 illik işğala 44 gündə son qoyuldu, ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan qalib ölkəyə, Azərbaycan xalqı qalib xalqa çevrildi. Bu möhtəşəm Qələbə, eyni zamanda, Azərbaycanın hərbi və iqtisadi gücünü dünyaya nümayiş etdirdi. Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Qarabağda genişmiqyaslı bərpa-quruculuq işlərinə start verildi, bu yerlərə yenidən həyat qayıtmağa başladı.

Azərbaycan dövləti və xalqı 8 noyabr tarixini Zəfər Günü kimi qeyd edir. Bu il tarixi zəfərimizin beşinci ildönümünü yaşayırıq. Bununla əlaqədar olaraq, ölkəmizdə və xaricdə bir sıra tədbirlər keçirilir. Eləcə də müxtəlif qurumlar 8 Noyabr Zəfər Günü ilə bağlı bəyanatlar verir, müxtəlif sənədlər qəbul edirlər.

### Tariximizin ən şərəfli hadisələrindən biri...

Yeri gəlmişkən, Milli Məclisin oktyabrın 31-də keçirilmiş plenar iclasında qəbul edilən 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar bəyanat xarici ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına göndərilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bəyanatda 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin milli tariximizin ən şərəfli və taleyüklü hadisələrindən biri olduğu, döyüş meydanında qazanılan Qələbənin siyasi-diplomatik müstəvidə də təsdiqləndiyi vurğulanır. Qeyd edilir ki, bu ilin avqustunda Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Birgə Bəyannamə imzalamaları, iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoyub, regionumuzda uzunmüddətli sülh və sabitlik yolunu açıb.

Sənəddə Milli Məclis İkinci Qarabağ müharibəsində Qələbənin tarixi əhəmiyyətini vurğulayaraq, dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin möhkəmləndirilməsi işinə sadiqliyini bir daha ifadə edir, Azərbaycan Prezidentinin bölgədə sülh və əməkdaşlıq mühiti yaradılmasına yönələn səylərini dəstəkləyir.

Ümumiyyətlə, bəyanatda diqqətə çatdırılır ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri dünya hərb tarixinə yeni şanlı səhifələr yazıb. İşğalçı qüvvələrə ağır zərbələr endirilib, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən 300-ə yaxın yaşayış məntəqəsi azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olub.

### Ermənistan dinc əhaliyə qarşı cinayətlər törədib



Bəyanatda o da vurğulanır ki, Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyətini etiraf edib. 44 günlük Vətən müharibəsi 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktını imzalaması ilə başa çatıb. Döyüş meydanında qazanılan Zəfərin siyasi-diplomatik müstəvidə də təsdiq edilməsi Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla Azərbaycana qaytarılmasını təmin edib.

“Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin uğurla yerinə yetirilərək Azərbaycan torpaqlarının işğalına son qoyulması, tarixi ədalətin bərpa olunması xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarıb və onu qalib xalqa çevirib. Bütün dünyaya nümayiş etdirilib ki, Azərbaycan haqsızlığla barışmayan qüdrətli dövlətdir və bundan sonra heç kəs onunla güc və təzyiq dili ilə danışa bilməz”,-deyə bəyanatda bildirilir.

Azərbaycan parlamentinin bəyanatında Ermənistanın müharibə dövründə dinc əhaliyə qarşı törətdiyi cinayətlərdən də bəhs olunur: “Hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri beynəlxalq hüquq normalarını və prinsiplərini, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı dəhşətli cinayətlər törədiblər. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ şəhərlərinə, Siyəzən, Xızı rayonlarına, digər yaşayış məntəqələrinə ballistik raketlər, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli mərmilər ilə edilən hücumlar nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilib, 450-dən çox insan yaralanıb. Bu dövlət terrorizm aktları müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdir. Qarşı tərəfin qanlı hücumlarına və vəhşilik əməllərinə baxmayaraq, Azərbaycan Ordusu beynəlxalq humanitar hüquq normalarına dönmədən əməl edib, düşmənin yalnız silahlı qüvvələrini və hərbi obyektlərini hədəf alıb, mülki şəxslərə və yaşayış məntəqələrinə zərər vurulmasına yol verməyib”.

### Separatizmə birdəfəlik son qoyulub

Eyni zamanda, qeyd olunur ki, 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində isə Ermənistan tərəfindən yaradılmış kriminal xunta rejiminin fəaliyyətinə son qoyulub, Azərbaycanın suverenliyi onun bütün ərazisində bərqərar edilib. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu olub. Beləliklə, son iki yüz ilə yaxın dövrdə erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulub.

Azərbaycanın Milli Məclisi Vətən naminə canını fəda etmiş şəhidlərin əziz xatirəsinə dərin ehtiramını bildirib, döyüş meydanlarında həyatını ölümcül təhlükələrə ataraq böyük qələbəmizə töhfə vermiş əsgər və zabitlərimizə minnətdarlığını ifadə edib.

***Nardar BAYRAMLI***

# Prezident Fərman verdi

## Məhkəmə ekspertizası tarixində elektron xidmətlər dövrü...



Azərbaycanda məhkəmə-hüquq sisteminin daha da təkmilləşdirilməsini və vətəndaş məmnunluğunun artırılmasını hədəfləyən islahatlar davam etdirilir. Bu istiqamətdə yeni çağırışlar və texnoloji inkişaf nəzərə alınmaqla növbəti mühüm addım atılıb. Söhbət respublikamızda "Məhkəmə Ekspertizası" informasiya sisteminin yaradılmasından gedir. Bununla bağlı Prezident İlham Əliyev 4 noyabr 2025-ci il tarixində müvafiq Fərman imzalayıb.

Fərmana əsasən, sistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir. Sistemin yaradılması, saxlanılması, fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdiriləcək. Fərmanla Nazirlər Kabinetinə, Ədliyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinə, eləcə də Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə müvafiq tapşırıqlar verilib. Sistemin "Hökumət buludu"nda yerləşdirilməsi nəzərdə tutulub.

### Tarixə qısa baxış

Baş verən oğurluq halları, qətl hadisələri, kiberdələduzluq, borcların qaytarılmaması, məişət zorakılığı kimi müxtəlif xarakterli cinayət hadisələrini sıravi vətəndaşlar yalnız vizual olaraq görürlər. Ancaq bu və ya digər cinayətlərin görünməyən, müəmmalı tərəfləri də var. Bir sıra hallarda cinayətkarlar iz azdırmaq, törətdikləri qanunazidd əməllərin məsuliyyətindən yaxa qurtarmaqdan ötrü ən ağlagəlməz vasitələrə əl atırlar. Burada isə peşəkarlar iş başına keçirlər. Hadisənin baş verdiyi ərazi tədqiq olunur, iştirakçıların ehtimal olunan əhatə dairəsi müəyyənləşdirilir, onlar soğu-suala tutulurlar. Təbii ki, bu zaman, necə deyərlər, əşyayi-dəlillər köməyə gəlir. Hadisə yerindən tapılan əşyalar, qapı, pəncərə üzərində qalan barmaq izləri, tük qalıqları, qan ləkələri, paltar cırıqları, hətta siqaret kötüyü belə izləri əsl cinayətkarların üzərinə apara bilər. Məhkəmə ekspertizalarını həyata keçirən mütxəssislər üçün DNT analizlərinin nəticələri də cinayətlərin müəyyənləşdirilməsində çox mühüm rol oynayır.

Respublikamızda müvafiq fəaliyyətlə məşğul olan Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin yaranma tarixi 1938-ci ilin avqust ayında Azərbaycan SSR Ədliyyə Xalq Komissarlığı nəzdində təşkil edilən Kriminalistika kabineti ilə bağlıdır. Bu kabinet azsaylı personaldan ibarət olmaqla qrafoloji ekspertizalar aparmaqla fəaliyyətə başlayıb. Lakin 1951-ci ilin iyun ayında SSRİ Nazirlər Sovetinin sərəncamı ilə həmin kabinet ləğv edilib, kabinetin əmlakı və Azərbaycanın hüquq-mühafizə orqanları üçün ekspertizaların aparılması vəzifəsi Gürcüstan elmi-tədqiqat kriminalistika laboratoriyasına həvalə olunub. 1956-cı ilin iyununda isə Azərbaycan SSR Nazirlər Sovetinin sərəncamı ilə Bakı elmi-tədqiqat kriminalistika laboratoriyası yaradılıb və bu laboratoriyada qrafoloji, ballistik, trasoloji ekspertizalar aparılıb. 1960-cı ilin dekabrında bu laboratoriyanın

### Cinayətlərin görünən və görünməyən tərəfləri

əsasında Azərbaycan Respublikası Nazirlər Sovetinin Hüquq Komissiyası yanında Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutu formalaşdırılıb.

Cinayətkarlığın kompleks tədqiqini, hüquq pozuntularının qarşısının alınması üzrə elmi cəhətdən əsaslandırılmış proqnozların və konstruktiv təkliflərin işlənib hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə 1991-ci ilin iyununda institutun adında və fəaliyyətində dəyişiklik edilərək Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Krminalistika və Kriminologia Problemləri İnstitutu adlandırılıb. Azərbaycan Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanı ilə Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu Məhkəmə Ekspertizası Mərkəzi adlandırılıb və Mərkəz baş idarə səlahiyyətli qurum kimi təsdiqlənib. Hazırda Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

-Məhkəmə ekspertizalarını keçirir və tədqiqatlar aparır;

-Elmi-tədqiqat işlərini aparır, ekspert tədqiqatının yeni metod və metodikalarını hazırlayır və təkmilləşdirir;

-Məhkəmə və hüquq mühafizə orqanlarına elmi-metodik kömək göstərir;

-Ekspert profilaktikasını həyata keçirir;

-Qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### Genişlənən beynəlxalq əməkdaşlıq

Məhkəmə ekspertizalarının yüksək səviyyədə həyata keçirilməsini təmin etmək üçün beynəlxalq əməkdaşlıq, bu sahədə ayrı-ayrı ölkələrin təcrübəsinin öyrənilməsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Məhkəmə Ekspertizası Mərkəzinin beynəlxalq qurumlara inteqrasiyanı genişləndirməsi təqdirəlayiqdir.

Qurum 10 fevral 2011-ci ildə Avropa Məhkəmə Ekspertizası İnstitutları Birliyinin ("European Network of Forensic Science Institutes - ENFSI") üzvlüyünə qəbul edilib və onun 60-cı üzvü olub. "MEM-in ISO/IEC 17025 "Sınaq və kalibrasiya laboratoriyalarının yetərliliyi üçün ümumi şərtlər" standartı üzrə akreditasiya fəaliyyətinin nəticəsi olaraq 24 oktyabr 2012-ci il tarixdə müvafiq xahişlə Türk Akreditasyon Kurumuna (TÜRKAK-a) müraciət edilib, 5-8 fevral 2013-cü il tarixində TÜRKAK-ın audit heyəti sahə auditini həyata keçirib. Nəhayət, Türk Akreditasyon Kurumunun (TÜRKAK) İdarə Heyətinin 14 may 2013-cü il tarixli qərarı ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ISO/IEC 17025 "Sınaq və kalibrasiya laboratoriyalarının yetərliliyi üçün ümumi şərtlər" standartı üzrə akkreditə edilib. Akkreditasiya ballistik, trasoloji (o cümlədən daktiloskopik), əlyazmaların və sənədlərin texnik ekspertizaları sahəsində 6 ekspert ixtisası üzrə 16 tədqiqat metodunu əhatə edir.

### Fəaliyyətin rəqəmsallaşdırılması

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində də elektron xidmətlər dövrü başlayıb. 2023-cü il dekabr ayının 26-da Ədliyyə Nazirliyi tərəfindən "Məhkəmə Ekspertizası Mərkəzinin rəqəmsallaşdırılması" mövzusunda ictimai təqdimat keçirilib. Tədbirdə məhkəmə ekspertizası sahəsində fəaliyyətin rəqəmsallaşdırılması, ədliyyə xidmətlərinə əlçatanlığın yaxşılaşdırılması məqsədilə hazırlanmış ekspertizaların icra vəziyyətini izləməyə və nəticələri barədə məlumatlar əldə etməyə imkan verən yeni elektron xidmətin təqdim olunub və onun funksionallığı əyani şəkildə nümayiş etdirilib.

Təqdim olunan e-xidmət vasitəsilə işin (materialın) nömrəsi, ekspertizanın növü, sənədin Mərkəzə daxil olma tarixi, onun icra vəziyyəti, əlavə material (sübutların) təqdim edilməsi və ya tədqiqat obyektinə baxış keçirilməsi barədə ekspert tərəfindən vəsatət verildiyi halda onun tarixi, mahiyyəti və vəsatətə baxılması nəticəsi, habelə rəyin verilməsi tarixi, rəy verilmədiyi halda isə səbəbi və sənədin icra olunmadan geri qaytarılması tarixi barədə məlumatlar əldə etmək mümkündür. Ekspertiza sahəsində tətbiq olunan rəqəmsal innovasiyalar ekspertiza fəaliyyətində şəffaflığın və operativliyin artırılmasına, istifadəçilər tərəfindən ekspertiza ilə bağlı məlumatların elektron və çevik qaydada əldə olunmasına xidmət edir. Nazirlik tərəfindən yaradılan elektron resursların informasiya təminatı Ədliyyə, Səhiyyə və Daxili İşlər nazirliklərinin müvafiq ekspertiza idarələrinin məlumatları əsasında formalaşıb.

### Bəzi məhkəmə ekspertizası növləri elektron qaydada keçiriləcək

Dövlət başçısının imzaladığı Fərmana əsasən "Məhkəmə Ekspertizası" informasiya sisteminin yaradılmasında məqsəd dövlət orqanlarının (qurumlarının) məhkəmə ekspertizası sahəsində fəaliyyətinin elektronlaşdırılması, ümumi məlumat və bilik bazasının formalaşdırılması və həmin bazadan istifadənin əlçatanlığının təmin edilməsindən ibarətdir. Sistem vasitəsilə aşağıdakılar təmin edilir:

-məzmununda dövlət sirri təşkil edən məlumat olanlar istisna olmaqla məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarların (qərardadların) Sistemə qəbulu;

-məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarların (qərardadların) icraata yönəldilməsi barədə müvafiq məlumatların məhkəmə ekspertizasını təyin etmiş orqana (quruma) və ya şəxsə elektron qaydada (elektron poçt, SMS və s.) göndərilməsi;

-istifadəçilər, o cümlədən hər bir məhkəmə eksperti üçün Sistemdə şəxsi kabinetin yaradılması;

-məhkəmə ekspertizalarının aparılma müddətlərinə riayət olunmasının izlənilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici məlumatın göndərilməsi;

-məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarlar (qərardadlar) üzrə məhkəmə ekspertizalarının aparılması zamanı verilən vəsatətlərin, ekspert rəylərinin və ekspertizaların aparılmasından imtina ilə bağlı məlumatların təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə məhkəmə ekspertizasını təyin edən orqana (quruma) və ya şəxsə göndərilməsi;

-məzmununda dövlət sirri təşkil edən məlumat olan sənədlər istisna olmaqla ekspert rəy və məlumatlarının arxivləşdirilməsi;

-məhkəmə ekspertizasının aparılması üçün zəruri olan məlumatların aidiyyəti dövlət informasiya ehtiyatlarından və sistemlərindən əldə edilməsi;

-məhkəmə ekspertizası fəaliyyəti ilə bağlı statistik və digər hesabatların hazırlanması;

-bəzi məhkəmə ekspertizası növlərinin elektron qaydada keçirilməsi.

*Mübariz FEYİZLİ*

# Əlaqələr inkişaf edir...

## Azərbaycan və Əlcəzair hökumətləri arasında Birgə Komissiya yaradılıb







Azərbaycanın xarici siyasətində dünya dövlətləri ilə bərabərhüquqlu əsaslarda əlaqələrin inkişaf etdirilməsi başlıca yer tutur. Dövlətimiz dünyanın bütün qitələri, o cümlədən Afrikada yerləşən ölkələrlə də münasibətləri genişləndirir. Bu baxımdan, Azərbaycan-Əlcəzair əlaqələri də qeyd edilməlidir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun bu ölkəyə rəsmi səfəri də qarşılıqlı əməkdaşlığın inkişafı baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, Ceyhun Bayramov Əlcəzair Xalq Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Əbdülməcid Təbbun tərəfindən qəbul olunub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan və Əlcəzair arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Əlcəzair Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ilin noyabrında Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirak etmək məqsədilə bu ölkəyə səfərini məmnunluqla xatırlayaraq, səfərin ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsinə mühüm töhfə verdiyini vurğulayıb.

Görüşdə iki ölkə arasında siyasi dialoqun dərinləşdirilməsinə, iqtisadi, təhsil və humanitar, enerji, nəqliyyat, kənd təsərrüfatı, turizm, elmi və texniki sahələrdə əməkdaşlığın genişləndirilməsinə maraq ifadə olunub. Bu çərçivədə, Azərbaycan Hökuməti ilə Əlcəzair Hökuməti arasında Ticarət, İqtisadi, Elmi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Sazişin imzalanması münasibətlərin inkişafında mühüm addım kimi qiymətləndirilib.

Tərəflər, həmçinin beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar. Ölkəmizin bir sıra beynəlxalq platformalarda sədrliyi və ev sahibliyi dövründə irəli sürülmüş təşəbbüslərin beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsinə xidmət etməsi təqdir olunub.

Görüş zamanı qarşı tərəf Azərbaycana qarşı hərbi təcavüzün tarixçəsi, postmünaqişə dövründə Azərbaycanın Cənubi Qafqaz regionunda dayanıqlı sülhün və sabitliyin təsis edilməsi vizionu, bərpa-quruculuq işləri barədə məlumatlandırılıb.

Görüşdə bir sıra digər regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycanın XİN başçısı Əlcəzairin Xalq Milli Assambleyasının sədri İbrahim Buğali ilə də görüşüb. Görüş zamanı Azərbaycanla Əlcəzair arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, parlamentlərarası əlaqələr çərçivəsində prioritetlər, eləcə də regional məsələlər müzakirə olunub. Dostluq və əməkdaşlıq əlaqələrinin daha da inkişafı üçün geniş potensialın olduğu, bu çərçivədə qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Xalq Milli Assambleyasının sədri İbrahim Buğali 2022-ci ildə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirakını, Milli Məclisin Sədri Sahibə Qafarovanın Əlcəzairə səfəri çərçivəsində görüşlərini xatırlayıb.

Ölkələrimizin siyasi, iqtisadi, humanitar, o cümlədən insanlar arasında əlaqələrin genişləndirilməsi sahələrində qarşılıqlı fəaliyyətin önəm kəsb etdiyi vurğulanıb. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda uğurlu əməkdaşlığın vacibliyi qeyd edilib.

Görüşdə parlamentlərimiz arasında əlaqələrin, dostluq qruplarının fəaliyyətinin, bu çərçivədə qarşılıqlı səfərlərin ölkələrimiz arasında münasibətlərin mühüm istiqamətini təşkil etdiyi vurğulanıb. Parlamentlərimizin beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq etdiyi və bu təşkilatlarda qanunverici orqanlarımız arasında qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd olunub.

C.Bayramov görüş zamanı bölgəmizdə post-münaqişə dövründə vəziyyət, münaqişə sonrası bərpa və quruculuq prosesi, sülh quruculuğu istiqamətində atılan addımlar ilə bağlı qarşı tərəfi məlumatlandırıb.

C.Bayramovun Əlcəzairin dövlət naziri, xarici işlər və xaricdəki milli icma və Afrika məsələləri naziri Əhməd Attaf ilə görüşündə isə Azərbaycan-Əlcəzair ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal inkişaflar, eləcə də Yaxın Şərqdə vəziyyət müzakirə olunub. Qarşılıqlı hörmət və ortaq dəyərlərə əsaslanan Azərbaycan-Əlcəzair əməkdaşlıq əlaqələrinin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub, ali və yüksək səviyyədə qarşılıqlı səfərlərin dövlətlərarası əlaqələrimizin inkişafına təkan verdiyinə dair həmrəylik ifadə olunub.

Həmçinin, iki ölkənin Xarici İşlər nazirlikləri arasında cari ilin aprelində baş tutmuş siyasi məsləhətləşmələrin, xarici işlər nazirləri arasında keçirilmiş görüşlərin Azərbaycan-Əlcəzair əməkdaşlığının hərtərəfli və sistematik şəkildə irəliyə aparılmasında rolundan bəhs edilib. Azərbaycan ilə Əlcəzair arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın məmnunluq doğurduğu qeyd edilib. Eləcə də, ölkəmizin ev sahibliyi etdiyi qlobal və regional əhəmiyyətli yüksəksəviyyəli tədbirlərin əhəmiyyəti diqqətə çatdırılıb. Bu çərçivədə növbəti il Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının sammiti və BMT-nin Ümumdünya Şəhərsalma Forumu barədə müzakirə aparılıb.

İqtisadi əməkdaşlıq ölçüsünə toxunularaq, ticarət və investisiyalar, neft-qaz və bərpaolunan enerji sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Təhsil və mədəniyyət sahələri üzrə mübadilələrin artırılmasının, turizm potensialının geniş şəkildə istifadə olunmasının xalqlarımızın bir-birini daha yaxından tanımasındakı rolundan bəhs olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında Ticarət, İqtisadi, Elmi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş iki ölkənin nazirləri tərəfindən imzalanıb. Birgə Komissiyanın iki ölkə arasında münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində əhəmiyyətli mexanizm olacağı vurğulanıb.

*Nardar BAYRAMLI*

# QƏLƏBƏMİZİN ZİRVƏSİ




27 sentyabr milli birliyimizin başlanğıcı kimi Azərbaycanın ən yeni tarixinə daxil olunub. Təbii ki, milli birliyin nəticəsi dövlətin inkişafının rəhni deməkdir. Ölkə Prezidentinin daxili və xarici uğurlu siyasətinin nəticəsində xalqın birliyi və vətənpərvərliyi təmin olunmuşdur. Vətənpərvərlik dinamik və daim olmalı, araşdırılmalı, müntəzəm təhlil olunmalı, qələbəmizin məzmununu, gənclərə, bütün təhsil sisteminə ardıcıl şəkildə çatdırılmalıdır. Bu işdə yüksək şəxsiyyətlərin, peşəkar ziyalıların, Vətən müharibəsi iştirakçılarının, Milli qəhrəmanların, qazilərin, şəhid valideynlərinin imkanlarından, onların çıxışlarından xalqa, xüsusilə gənc nəslə müraciətlərindən düzgün istifadə olunur. 44 günlük müharibənin nəticələri dünyanın vəziyyətində bir sıra yeniliklərin yaranmasına, köklü dəyişilmələrin təzahürünə səbəb olmuşdur.

27 sentyabr ordumuzun geniş planda əks hücum əməliyyatından başlayaraq Azərbaycanın Cənubi Qafqazın ən qüdrətli dövlətinə, Ali Baş Komandan Prezident İlham Əliyevin regionun lider Dövlət başçısına çevrilməsilə nəticələnmişdir. Bütün bunlar ən zəruri məsələlər olduğu üçün hələ Vətən müharibəsinin gedişində dünyanın düzənində ciddi dəyişilmələrin yaranmasına səbəb olmuşdur. Amerika, İngiltərə, Avstraliya yeni bir İttifaqda birləşmiş, Fransa dövləti NATO-dan kənarda Avropa İttifaqı ordusu yaratmaq üçün cəhd göstərir.

Şuşada Azərbaycan-Türkiyə Bəyənnaməsi imzalandı. Milli Məclisdə daha ciddi bir sənəd öz təsdiqini tapdı: Pakistan-Azərbaycan-Türkiyə, həmçinin də göstərilən ölkələr arasında birgə hərbi təlimlərə başlanıldı. Bunlar hamısı 44 günlük müharibədə qazanılmış qələbənin nəticəsində yaranmışdır. Lakin qazanılmış qələbədən sonra hibrid müharibə formatı başlanılmışdır. Hibrid müharibə dedikdə informasiya müharibəsi, texnologiya müharibəsi və canlı qüvvənin iştirakının təmin olunması başa düşülür. Artıq dünya bu sahədə hibrid müharibəsinin əsaslarını Azərbaycandan öyrənməyə üstünlük verir. Təsadüfü deyil ki, II Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri də Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətinə üstünlük verirlər. Vətən müharibəsinin gedişində Ali Baş Komandan İlham Əliyev dünyanın müxtəlif ölkələrindən olan 30-dan artıq KİV-inə müsahibə verdi. Prezident İlham Əliyev özünün polad məntiqi sayəsində verdiyi müsahibələrində dünyanın diplomatiya tarixinə yeni ümumbəşəri çalarlar gətirdi.

Dünyanın səviyyəli hərbi ekspertlərinin çoxu İkinci Qarabağ müharibəsini dronlar müharibəsi adlandırırlar. Nəticə göstərdi ki, Azərbaycan 44 günlük müharibədə pilotsuz uçuş aparatlarının bütün növlərindən düzgün istifadə etmişdir.

Qələbədən sonra Azərbaycan Qənimətlər Parkını yaratdı. Bu, ağır döyüşlərdə qazanılmış zəfərin nümunəsidir. Həmin parkın zəruri nümunələrindən biri ondan ibarətdir ki, xalqımız bu müharibəni heç vaxt unutmayacaq. Xocalı soyqırımında həlak olmuş mülki və hərbi vətəndaşlarımızı xatirələrdə daim yaşatmaq üçün bu park tarixi abidədir. Qənimətlər Parkından əlavə Zəfər Muzeyi tikilib istifadəyə verilmişdir.

2023-cü ilin 19-20 sentyabrında isə 24 saata yaxın davam edən antiterror əməliyyatının nəticəsi olaraq Dağlıq Qarabağ düşməndən tam azad olundu və bununla Azərbaycan bir dövlət kimi ərazi bütövlüyünü və suverenliyini təmin etdi.

30 ildən sonra işğaldan azad olunmuş bütün ərazilərdə Azərbaycan müharibənin yaralarını sağaldır və bu işin vüsətli sürəti heyrət doğurur. İndi işğaldan azad olunmuş bölgədə geniş miqyasda abadlıq-quruculuq işləri, ilk növbədə elektrikləşdirmə işləri aparılır. Laçında, Kəlbəcərdə, Suqovuşanda gücü 20 meqavatt olan elektrik stansiyaları bərpa olunub istifadəyə verilibdir.

Bütün istiqamətlərdə uzunluğu 1000 km olan yollar çəkilib və yolların çəkilişi ilə yanaşı Kəlbəcər istiqamətində tunellər inşa olunur.

Keçmiş qaçqın və köçkünlərin öz doğma yurdlarına qayıtması yüksək vüsətlə aparılan yalnız şəhər və rayon mərkəzlərində deyil, kənd və qəsəbələrdə də insanların onlar üçün inşa olunmuş mənzillərlə təmin olunması yüksək səviyyədədir.

Qarabağ Universitetinin təsis olunmasını və fəaliyyətini, Füzuli Beynəlxalq aeroportunun istifadə verilməsini, Zəngəzur yolunun açılması istiqamətində 8 avqust 2025-ci il tarixli Vaşinqton razılaşmasını da deyilənlərə bariz nümunə kimi əlavə etmək olar.

Azərbaycan Ordusunun zəfər həmlələri qarşısında duruş gətirə bilməyən düşmən mülki əhalini hədəfə almaqla hərbi cinayət törətməyə başladı.

Müharibənin gedişi zamanı Ermənistan tərəfi Azərbaycanın şəhərlərini ballastik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutub. Düşmənin müharibə qanunlarına zidd olan atəşləri nəticəsində 100-ə yaxın mülki şəxs, onların arasında qadınlar və uşaqlar da həlak olub. 400 nəfərdən çox mülki şəxs yaralanıb, 5 mindən artıq ev, müxtəliuf təyinatlı tikili dağıdılıb. Gəncə, Bərdə, Ağdam, Naftalan, Fizuli, Goranboy, Tərtər və Mingəçevirin şəhər və kəndlərinin raket atəşinə tutulması ilə Ermənilər tərəfindən müharibə cinayəti törədilmişdir.

Müharibə zonasına aid olmayan şəhər və rayonların müxtəlif təyinatlı silah növlərindən atəşə məruz qalması təbii ki, beynəlxalq ictimaiyyət tərəfindən kəskin qınanılmalı və müharibə cinayəti hesab olunmalıdır.

Rəsmi İrəvanın hərbi cinayətkar olmasının sübutlarından biri də düşmənin işğal etdiyi zonlarda mina basdırmaları və basdırılmış minaların xəritəsini Azərbaycana təqdim etməmələridir.

Basdırılmış minalara aid düzgün xəritənin verilməməsi həmin ərazilərdə bərpa işçilərinin aparılmasını ləngidir və mülki əhalinin həyatı üçün təhlükə törədir. Müharibə başa çatandan sonra, indiyədək mülki əhali və hərbçilər həyatını itirmiş və ya şikəst olmuşdur. Bu cür insidentlərə qarşı Beynəlxalq ictimaiyyətin susması, rəsmi bəyanatlarla çıxış etməməsinin səbəbi siasətdə “ikili standartların” olmasının nəticəsidir.

Ermənilərin Qarabağ uğrunda gedən 44 günlük müharibədə azərbaycanlıların mülki əhalisinə qarşı törətdikləri cinayət işləri ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Baş prokrorluğu səviyyəsində sistemli araşdırmalar aparılmış, 176 adda müxtəlif istiqamətli cinayət işi müəyyənləşdirilmiş, 24 nəfər yüksək vəzifəli erməni vətəndaşı beynəlxalq axtarışa verilmişdir. Onlardan 69 nəfərin cinayət işinin mühakiməsi Bakıda davam etdirilir.

Azad olunmuş ərazilərdə yenidənqurma işlərinin yüksək səviyyədə aparılması ölkə Prezidenti İlham Əliyevin nəzarəti və qayğısı ilə həyata keçirilir.

***Ədalət Fərəcov,***
***“91-lər”in nümayəndəsi,***
***YAP Veteranlar Şurasının üzvü, professor, Prezident təqaüdçüsü***

***Sultanəli Qurbanov,***
***Səbail rayonu YAP “Ü.Hacıbəyov-68” ƏPT sədri, ADPU-nun dosenti***

# Sərmayələrin yeni gündəliyi

## Azərbaycan və BƏƏ yeni əməkdaşlıq sənədi imzalayıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri çərçivəsində həmkarı, bu ölkənin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin iştirakı ilə İqtisadiyyat Nazirliyi və ADNOC-un investisiya platforması olan XRG arasında yeni əməkdaşlıq razılaşması imzalanıb. Razılaşma təbii qazın hasilatı sahəsində əməkdaşlıq edən SOCAR və XRG arasında tərəfdaşlığı enerji təchizatının şaxələndirilməsi istiqamətində genişləndirəcək. Xatırladaq ki, BƏƏ-nin XRG platforması ilə İqtisadiyyat Nazirliyi arasında bir neçə ay əvvəl Cənub Qaz Dəhlizində investisiya haqqında anlaşma memorandumu da imzalanıb ki, bu sənədlər yeni investisiya açarı sazişi kimi xarakterizə oluna bilər. Dünyanın ən nüfuzlu sərmayə institutlarından biri olan XRG-nin ölkəmizdəki layihələrdə təmsil olunması yüz milyonlarla dollar qeyri-neft investisiyasının cəlbi deməkdir.**

## Ölkəmizdə BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır




Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında qarşılıqlı hörmət, dərin etimad və möhkəm dostluğa əsaslanan münasibətlər son illərdə inkişaf edərək ən yüksək səviyyəyə çatıb. Dövlət başçılarının davamlı xarakter alan qarşılıqlı səfərləri, hökumət və dövlət orqanlarının nümayəndələrinin intensivləşən görüşləri, parlamentlərarası fəal münasibətlərin qurulması, habelə beynəlxalq platformalarda faydalı əməkdaşlıq dövlətlərarası əlaqələrin strateji tərəfdaşlıq zirvəsinə qalxmasına səbəb olub.

Tərəflər arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi, ölkəmizin enerji infrastrukturuna investisiyanın cəlb edilməsi, gəlirlərin şaxələndirilməsi və etibarlı tərəfdaş kimi rolunun gücləndirilməsi də strateji əhəmiyyət daşıyır. 2016-cı il fevral ayında “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair Saziş”, “Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Telekommunikasiya Sektorunun Tənzimlənməsi üzrə Baş Departamenti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun imzalanması iqtisadi sektorda gələcək dərin əməkdaşlıq üçün mühüm təməllər yaradıb. 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin ticarət nümayəndəliyinin, 2019-cu ildən isə yerli məhsullarımızın BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və “Made in Azerbaijan” brendinin BƏƏ bazarında daha çox tanıtmaq üçün “Azərbaycan Ticarət Evi”nin fəaliyyətə başlaması münasibətlərdə uzunmüddətli dövr üzrə yeni əməkdaşlıq səhifəsi açıb. Hazırda Azərbaycanda BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır.

## Biznes Şurası ticari əlaqələrin inkişafını təşviq edir

Tərəflər arasında ticarət dövriyyəsi 2024-cü ildə 2,24 milyard dollara qədər artıb ki, bu, ərəb dövlətləri blokunda ən böyük göstəricidir. İmkanlar isə daha böyükdür. Mövcud potensialları bir platformada birləşdirən tərəflər müştərək iqtisadi hədəfləri həyata keçirmək üçün daha geniştutumlu Yol Xəritəsi hazırlayıb.

İqtisadi əlaqələrin inkişafında Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyasının fəaliyyəti xüsusi əhmiyyət daşıyır. Komissiyanın indiyədək 8 iclası keçirilib və faydalı yekun razılaşma sənədləri imzalanıb. Həmçinin Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə BƏƏ-nin Ticarət və Sənaye Palataları Federasiyası arasında bir neçə ay əvvəl imzalanmış Birgə Biznes Şurasının yaradılması haqqında memorandum iki ölkənin biznes icmalarını bir platformada birləşdirən müştərək təsisat rolunu oynayır və investisiyayönümlü layihələri təşviq edir.

## “Masdar”ın 2 milyard dollar sərmayəsi

Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri Azərbaycanın strateji tərəfdaşı kimi enerji və iqtisadi inkişafa töhfə verir. BƏƏ tərəfindən investisiya qoyuluşunda əsas sahə kimi “yaşıl enerji” sektoru mühüm əhəmiyyət kəsb etməkdədir. Ərəb sərmayələri Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş bərpaolunan resursların hasilatında əsas investor kimi təmsil olunmaq niyyətindədir.

Bu iqtisadi gündəliyə uyğun olaraq, BƏƏ-nin nəhəng investoru “Masdar” Azərbaycanda ən potensial investorlardan biridir, şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya 2023-cü ildə istifadəyə verilib. Qaradağ Günəş Elektrik Stansiyasının açılışı enerji sahəsində ən nəhəng layihənin icrası kimi tarixə düşüb.

“Masdar”la imzalanmış digər sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpa olunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər. Bundan başqa, “Masdar”la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb. Ümumilikdə, “Masdar” şirkəti Azərbaycanda icra etdiyi investisiya planına əsasən, bərpaolunan enerji sahəsinə 2 milyard dollardan artıq sərmayə yatıracaq.

***E.CƏFƏRLİ***

# Ölkənin iqtisadi qüdrətini artıran siyasət

## Regionların inkişafına dair proqramların icrası Azərbaycanın simasını dəyişib

**2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkəmizin bütün şəhər, qəsəbə və kəndlərinin simasını köklü şəkildə dəyişib, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açıb. 20 ildən artıqdır ki, icra olunan regional inkişaf proqramları sayəsində ölkəmizdə iqtisadiyyatın dinamik və davamlı inkişafı təmin olunub, liberal bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaların fəaliyyətinə geniş imkanlar yaradılıb. Eyni zamanda, müasir texnologiyaları cəlb etmək və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılması genişlənib. Nəticə etibarilə yürüdülən bu siyasət ölkənin iqtisadi qüdrətinin artırılmasına dəyərli töhfələr verməklə, beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldib.**

### Ümumi daxili məhsul 3,4 dəfə artıb

Dövlət Proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə 2004-2024-cü illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,4 dəfə, o cümlədən qeyri-neft sektoru 2,9 dəfə artıb. Bu dövrdə sənaye real ifadədə 2,8 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,8 dəfə, kənd təsərrüfatı 1,9 dəfə yüksəlib. Strateji valyuta ehtiyatları 2004-cü ilə nisbətən 45,4 dəfə artaraq 82 milyard dollar səviyyəsini keçib. Dövlət proqramlarının icrası dövründə xarici ticarətin coğrafiyası daha da genişlənmiş, onun əmtəə strukturu təkmilləşmişdir. Bu dövrdə Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparmış, qeyri- neft ixracı 4,8 dəfə artıb.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapmışdır. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business 2019" hesabatına görə Azərbaycan əvvəlki illə müqayisədə reytinqdə 32 pillə irəliləyərək, 57-ci yerdən 25-ci pilləyə yüksəlib. Sənədə əsasən, 10 indikatordan 8-i üzrə öz mövqeyini daha da yaxşılaşdıran Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.



### 2,2 milyondan çox yeni iş yeri yaradlılıb

Mövzu barədə "Yeni Azərbaycan"a danışan iqtisadçı-ekspert Fuad İbrahimov bildirib ki, regionların sosial-iqtisadi inkişafı Azərbaycan üçün ən aktual məsələlərdən biridir. Bu istiqamətdə həyata keçirilən sistemli addımlar uğurla davam etdirilir. Onun sözlərinə görə, ölkəmizdə uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları Azərbaycanın bütün şəhər və rayonlarının simasının əsaslı şəkildə yenilənməsini təmin etməklə, hərtərəfli inkişafını gücləndirib.

Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət öz müsbət tövhəsini vermiş, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2004-2024-cü illər ərzində 2,2 milyonu daimi olmaqla, 2 milyondan artıq yeni iş yeri yaradılıb ki, iş yerlərinin də 75 faizi regionların payına düşür.

Sənayenin maşınqayırma, metallurgiya, kimya, mebel, toxuculuq, qida və digər sahələrində dinamik artım baş vermiş, dünya iqtisadiyyatının böhranla üzləşdiyi dövrdə belə Azərbaycan sənayesinin qeyri-neft sektorunda inkişafa nail olunub. Regional inkişafla bağlı dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə regionlarda sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli işlər görülüb, 9 sənaye parkı yaradılıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial iqtisadi inkişafı" istiqaməti üzrə hazırlanmışdır**

### Qarabağ və Şərqi Zəngəzur regional inkişafa töhfə verir

F.İbrahimovun sözlərinə görə, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.

Bu gün işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına inteqrasiyası uğurla həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa-quruculuq prosesinə infrastruktur layihələrindən başlanılıb. "Artıq son statistika göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 50 mindən artıq vətəndaş çalışır. Bu isə regionların inkişafında yeni mərhələnin başlandığını göstərir. İşğaldan azad olunmuş ərazilərimiz həm iş yerlərinin yaradılması, həm də iqtisadi fəaliyyətlərin genişləndirilməsi baxımından mühüm rol oynayır. Lakin təkcə Qarabağ və Şərqi Zəngəzur deyil, digər iqtisadi rayonların da potensialından səmərəli istifadə olunmalı və bu bölgələrə də sərmayələr cəlb edilməlidir. Regionların inkişafı və paytaxtla bölgələr arasında tarazlığın qorunması ölkənin uzunmüddətli iqtisadi strategiyasında əsas prioritetlərdən biri kimi qiymətləndirilir".

***Yeganə***

# Kaliningrad üzərində "qara buludlar" ...

## Moskva narahatdır - NATO "mühasirəyə" hazırlaşır?

**Rusiya-Ukrayna müharibəsində, dolayısı ilə isə Qərb-Rusiya qarşıdurmasında ən strateji həlqələrdən biri də Kaliningrad vilayətidir. Qeyd edək ki, 1946-cı ilin iyuluna qədər Königsberq adlanan vilayət Rusiya Federasiyasının qərbdə yerləşən ərazisi, Federasiyanın ən kiçik vilayətidir. Mərkəzi Avropada yerləşən bu bölgə cənubda Polşa, şimalda və şərqdə Litva ilə həmsərhəddir. Qərbdə Baltik dənizi ilə əhatə olunub. Sahəsi 15.125 kvadrat kilometrdir. Qeyd edək ki, İkinci Dünya müharibəsindən dərhal sonra ərazidə mülki məsələlərlə məşğul olan Xüsusi Hərbi Dairə təşkil edilib. 7 aprel 1946-cı ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə bu ərazidə RSFSR-in tərkibində Königsberq vilayəti yaradıldı. 4 iyul 1946-cı ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə bölgə Kaliningrad, Königsberq şəhəri isə sovet dövlət və partiya xadimi M. İ. Kalinin şərəfinə Kaliningrad adlandırılıb. 9 iyul 1946-cı ildə Stalin tərəfindən imzalanmış SSRİ Nazirlər Sovetinin 1522 nömrəli Fərmanı ilə 1946-cı ilin avqust-oktyabr ayları arasında RSFSR-in 20 bölgəsindən və üç muxtar respublikasından, eləcə də Belarusdan Kaliningrad vilayətinə daimi yaşayış üçün 12.000 kolxozçu ailəsinin "könüllü" köçürülməsi təmin edilib. Alman və Litva əhalisi (Prussiya litvalıları) 1947-ci ilə qədər Almaniyaya deportasiya olunub. Müharibədən sonra Kaliningrad vilayəti Sovet İttifaqının ən hərbiləşdirilmiş ərazilərindən birinə çevrildi. İkiqat Qırmızı Bayraqlı Baltik Donanmasının qərargahı Kaliningradda yerləşdirildi. 1991-ci ildən sonra da Baltiysk (keçmiş Pillau) şəhəri bu donanmanın ən böyük bazası olaraq qalmaqdadır. Hazırkı  həssas məqamda isə Kaliningrad məsələsi daima aktualdır. Təsadüfi deyil ki, Mərkəzi Avropda ehtimal olunan potensial qarşıdurmada ilkin hədəf kimi Kaliningrad göstərilir - hər iki tərəf bu ərazini təhlükə kimi xarakterizə edir: Qərb özünə təhdid kimi, Rusiya isə ilk hücuma məruz qalacaq ərazi kimi...**

### Təlim, yoxsa...

Son dövrlərdə aktual olan NATO-Rusiya qarşıdurması ehtimalı yenidən Kaliningrad məsələsini müzakirə mövzusuna çevririb. Xatırladaq ki, ötən ayın ortalarında NATO Mərkəzi Avropaya yaxın ərazidə "Sabit Günorta" nüvə qarşısının alınması təlimləri keçirilib. Təlimlərə Hollandiya ev sahibliyi etsə də, əsas fəaliyyətlər Şimal Alyansı tərəfindən icra olunub. Təlim çərçivəsində Belçikadakı "Kleine-Brogel" hava bazası və Böyük Britaniyadakı Kral Hava Qüvvələrinin "Lakenheath" bazası da dəstək rolunu oynayıb. Təlimlərdə 14 müttəfiq ölkədən təxminən 71 hərbi təyyarə iştirak edib. Təlimlərdə məqsəd, nüvə silahlarının təhlükəsizliyini və effektivliyini təmin etmək, həmçinin müttəfiq ölkələrin nüvə hücumunun qarşısının alınması sahəsindəki hazırlığını artırmaq olduğu bildirilib. Bu isə Moskva üçün müharibə ehtimalı proqnozlarını yenidən ortaya çıxarıb.



### Moskva "qırmızı xətti"ni açıqlayır...

Son aylarda, xüsusilə yay aylarına Kaliningrad məsələsi aktiv müzakirə predmeti olub. Məsələn, bu ilin iyulunda ABŞ-ın Avropa və Afrikadakı quru qoşunlarının komandanı, general Kristofer Donahu bildirmişdi ki, Rusiyaya məxsus Kaliningrad bölgəsi hər tərəfdən NATO-ya üzv ölkələrin əhatəsindədir və Şimali Atlantika Alyansı onu istənilən an məhv edə bilər.

Bu mülahizəyə cavab olaraq Kremlin mətbuat katibi Dmitrli Peskov vurğulamışdı ki, NATO-nun Rusiyaya qarşı düşmənçiliyi Moskvanı ölkənin təhlükəsizliyini təmin etmək üçün müvafiq tədbirlər görməyə məcbur edir. "NATO qarşıdurma alətidir, ölkəmizə düşmən münasibət bəsləyən blokdur. Bu, bizi bütün bunları nəzərə almağa və öz təhlükəsizliyimizi təmin etmək üçün müvafiq tədbirlər görməyə məcbur edir", - Peskov deyib.

Daha sonra Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirmişdi ki, bölgənin təhlükəsizliyi bütün lazımi vasitələrlə təmin ediləcək. "Bütün demarşlar edilir, bütün siqnallar ötürülür. Bu, dönməz praktikadır. Kaliningrad vilayəti Rusiyanln ayrılmaz hissəsidir və heç bir halda heç bir müzakirə predmeti deyil".

Dövlət Dumasının komitə rəhbəri Leonid Slutski isə bəyan etmişdi ki, NATO-nun Kaliningrad vilayətinə hücumu Rusiyanın cavab tədbirlərinə, o cümlədən nüvə doktrinasında nəzərdə tutulan tədbirlərə gətirib çıxaracaq.

### NATO "məşq edir"...

Belə ki, Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirib ki, Şimali Atlantika Alyansı hərbi təlimlər zamanı Kaliningrad bölgəsinin mümkün blokadasını məşq edir. "Alyansın təlimləri zamanı Kaliningrad bölgəsinin blokadası kimi ssenarilər məşq edilir. Bölgə fəal şəkildə hərbiləşdirilir, koalisiya qüvvələri və təchizatları ilə doldurulur", -deyən Qruşko bildirib ki, bu hadisələrin fonunda bölgədə gərginliyi azaltmağın yollarını tapmaq çətindir. O, Qərbin və NATO-nun təcili məsələlərin dürüst müzakirəsinə başlamaq istəmədiyini iddia edib, vurğulayıb ki, Rusiya gərginliyin azaldılmasına sadiqdir.

Rusiya xarici işlər nazirinin müavini xəbərdarlıq edib ki, Rusiya boş oturmayacaq və vəziyyətə həm beynəlxalq hüquq, həm də digər alətlərdən istifadə edərək cavab verəcək. Qruşko bildirib ki, bu, dövlət təhlükəsizliyini və milli maraqları təmin etmək üçün vacibdir.

Beləliklə, Kaliningradda ehtimal olunan hər hansı bir qarşıdurma Rusiya ilə Qərb arasında gərginlik nöqtələrinin çoxalmasına və artıq dünya təhlükəsizliyi sistemini kökündən sarsılmasına yol açı bilər. Çünki Kaliningrad ətrafında baş verə biləcək hadisələr təkcə regional böhran deyil, həm də qlobal miqyasda nüvə təhdidinin artması ilə nəticələnə biləcək yeni qarşıdurmanın başlanğıcı kimi dəyərləndirilir. Kaliningrad Rusiyanın Avropadakı ən strateji hərbi nöqtəsidir - burada yerləşən "İskander-M" raket kompleksləri və Baltik donanmasının qüvvələri Moskvanın NATO-nun şərq cinahına yönəlik əsas gücü hesab olunur. Verilən açıqlamalardan da bəlli olur ki, vilayətin hərbi potensialı həm də Rusiya üçün nüvə balansında mühüm rol oynayır. Moskvanın nüvə siqnalı verməsi həm də Qərbə qarşı psixoloji təzyiq formasıdır. Çünki Rusiya yaxşı anlayır ki, Baltik regionunda hərbi eskalasiya istənilən anda nəzarətdən çıxaraq qlobal müharibə riskini doğura bilər.

### Nüvə ritorikasının davamı - qlobal təhdid...

Bütün bunlar göstərir ki, Kaliningrad artıq təkcə Rusiya ilə NATO arasında gərginlik nöqtəsi deyil, XXI əsrin "soyuq müharibə"sinin potensial açar nöqtəsinə çevrilib. Dünya təhlükəsizlik arxitekturasının yenidən formalaşdığı indiki halda isə hərbi ritorikanın davam etdirilməsi nüvə balansının pozulmasına yol açacaq - bu isə tək Avropa deyil, bütün bəşəriyyət üçün faciəvi nəticələr doğura bilər...

***P.İSMAYILOV***

# Genişlənmə siyasətinin yeni parametrləri...

## Avropa İttifaqının hədəfləri: paritetizm sona çatır, "siyasi idarəetmə" modeli dəyişir





**Ötən əsrin ikinci yarısından başlanan yeni qütbləşmə prosesi dövründə Avropa İttifaqı (Aİ) regional qrup kimi özünün parametrlərini formalaşdırmağa başladı. Artıq əsrin sonuna yaxın Aİ-nin həm iqtisadi, həm də siyasi cəlbediciliyi yüksək səviyyəyə qədəm qoymuşdu. 1990-cı illərin əvvəlindən, yəni sosialist blokunun dağılması və Şərqi Avropa ölkələrinin kapitalist sisteminə keçidindən sonra Avropa İttifaqına üzv olmaq prosesi qitənin gələcək inkişafının əsas istiqamətlərindən biri kimi xarakterizə olunurdu. Həmin dövrdə artıq Aİ özünün "üzvlük parametrlərini" tam fərqli detallar üzərində qurmağa başladı - başqa sözlə, yeni üzv olmaq istəyən dövlətlər üçün yeni inteqrasiya modelləri və öhdəlikləri müəyyənləşdirildi. Dünyanın yeni nizamının formalaşdığı indiki zamanda analoji prosesin davamını müşahidə edirik. Aİ genişlənmə siyasətini "Avropanın dərinləşməsi" kimi təqdim etsə də, əslində, bu, həm də geosiyasi məkanın yenidən dizaynıdır. Bunu Aİ rəsmiləri özləri də dolayısı ilə təsdiq edirlər - Avropa İttifaqının Genişlənmə üzrə Komissarı Marta Kosun sözləri ilə desək, qarşıdakı illərdə genişlənmə "real imkan" kimi dəyərləndirilir. Lakin bu "imkan" yalnız siyasi deyil, həm də strateji və iqtisadi hesablamaların nəticəsidir.**

### Aİ üzvü olmaq hansı prestiji yaradır?

Bəzi statistik məsələlərə nəzər salaq: mənzil qərargahı Brüsseldə yerləşən Aİ yeganə beynəlxalq təşkilatdır ki, özündə həm beynəlxalq təşkilat, həm də dövlət əlamətləri daşıyır, əslində isə formal olaraq heç biri deyil. Bəzi məsələlər İttifaqın ümumi institutları, bəziləri isə üzv dövlətlərin nümayəndələrinin razılaşması ilə qəbul edilir. Vurğulandığı kimi, formal olaraq 1957-ci ildə yaranan təşkilata qurucu üzvlərin ardınca 1973-cü ildə Danimarka, İrlandiya və İngiltərə, 1981-ci ildə Yunanıstan, 1986-cı ildə Portuqaliya və İspaniya qoşulub. Aİ platformasında isə ilk qəbul 1995-ci ildə Avstriya, Finlandiya və İsveçin qismətinə düşüb. Ən böyük üzvqəbuletmə prosesi isə 2004-cü ildə baş verib. Həmin il Estoniya, Litva, Latviya, Çex Respublikası, Polşa, Kipr, Slovakiya, Sloveniya, Malta və Macarıstan Aİ-nin tamhüquqlu üzvü qəbul ediliblər. 2007-ci ildə təşkilatın sıralarına Rumıniya və Bolqarıstan, son olaraq 2013-cü ildə isə Xorvatiya qoşulub. 2020-ci ilin yanvarın 31-də isə hələlik yeganə hal olaraq Böyük Britaniya Avropa İttifaqını tərk edib.

İlk olaraq vurğulayaq ki, Avropa İttifaqına üzvlük istənilən qitə dövləti üçün həm iqtisadi, həm də siyasi baxımdan mühüm prestij sayır. İqtisadi tərəfdən baxsaq, Aİ bazarına inteqrasiya olmaq:

- Azad ticarət və sərbəst kapital dövriyyəsi;
- Avropa investisiyalarına çıxış;
- Regional inkişaf fondlarından maliyyə dəstəyi;
- İnfrastruktur və sosial layihələr üçün güzəştli kreditlər deməkdir.

Bütün bunlar, xüsusilə Şərqi Avropa və Balkan ölkələri üçün, 2000-ci illərdən bəri iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilib. Məsələn, sirr deyil ki, Polşa, Slovakiya, Macarıstan kimi dövlətlər məhz Aİ fondları hesabına iqtisadiyyatını modernləşdirib. Lakin bu üzvlük, eyni zamanda, müəyyən "müstəqillik itkisidir". Aİ-nin ümumi qərar qəbuletmə mexanizmi üzv dövlətlərin milli siyasətlərinə təsir göstərir. Məsələn, enerji təhlükəsizliyi, gömrük tarifləri, xarici siyasət istiqamətləri, hətta bəzi sosial sahələr üzrə qərarlar Brüsselin koordinasiyası ilə qəbul olunur.

Bu mənada, Aİ üzvü olmaq, bir tərəfdən, beynəlxalq səviyyədə etibarlılıq və sabitlik, digər tərəfdən isə siyasi muxtariyyətin məhdudlaşması deməkdir. Xüsusən də ABŞ və Böyük Britaniyadan sonra Avropanın öz strateji xəttini müəyyənləşdirmək istəyi fonunda bu asılılıq daha çox müzakirə olunur.

### Marta Kosun mesajları, yoxsa "səmimiyyət testi"?



Aİ rəsmisinin çıxışında bir çox məqamlar diqqəti cəlb edir. Məsələn, Marta Kosun "Biz Avropa İttifaqının genişləndirilməsinə hazırlaşmalıyıq," bəyanatı maraq doğurur - onun fikrincə, bəzi namizəd ölkələrin əldə etdiyi nəticələr bu prosesi "real imkan"a çevirir.

Bu fikirdə xüsusilə "bəziləri" ifadəsi diqqətçəkicidir. Kos açıq şəkildə demir, amma dolayısı ilə etiraf edir ki, son proseslərdə Aİ-nin mövqeyinə sözsüz və şərtsiz riayət edən dövlətlər prosesə "hazırlıqlı" olsunlar - başqa sözlə, Aİ-nin dəyərlər sistemini şərtsiz qəbul edən dövlətlər sürətli inteqrasiya imkanı qazanır.

Amma bu, ədalətli yanaşma deyil. Çünki Aİ standartlarına uyğun qanunvericilik islahatları aparmış, iqtisadi sabitliyini təmin etmiş dövlətlərin, məsələn Türkiyənin (bu haqda bir az sonra geniş toxunacağıq) kənarda qalması, əksinə, "strateji seçim"in ideoloji motivlər üzərindən aparıldığını göstərir. Beləliklə, Aİ-nin genişlənmə siyasəti real iqtisadi inteqrasiyadan çox siyasi loyallitet testinə çevrilib. Brüssel bu yolla öz təsir zonalarını genişləndirmək, Qərbin mərkəzləşdirilmiş güc modelini qorumaq istəyir.

### Genişlənmə xəritəsində müəmma: Niyə Türkiyə kənarda qalır?

Marta Kosun açıqlamasında konkret adlar çəkilib - Aİ rəsmisi deyib ki, Monteneqro, Albaniya, Moldova və Ukrayna bu il Aİ-yə üzvlük istiqamətində əhəmiyyətli irəliləyişlər əldə ediblər. Diqqət çəkən məqam siyahıda məsələn Türkiyə və ya Serbiya kimi dövlətlərin yer almamasıdır. Halbuki hər iki ölkə onilliklərdir namizəd statusundadır və Aİ ilə müzakirə mərhələlərini keçib. Müqayisə aparsaq, adıçəkilən dövlətlərin heç biri iqtisadi, demoqrafik və siyasi təsir gücü baxımından Türkiyə ilə eyni səviyyədə deyil. Siyasi mütəxəssislər isə etiraf edir ki, Moldova və Ukrayna isə uzunmüddətli münaqişələr və iqtisadi çətinliklər fonunda hələ Aİ standartlarından uzaqdır.

Türkiyə həm də ən uzunmüddətli namizəd sayılır. Rəsmi Ankara 1987-ci ildə Aİ-yə üzvlük üçün müraciət edərək 1999-cu ildə namizəd statusu alıb. 2005-ci ilə qədər tərəflər rəsmi olaraq Ankaranın statusu ilə bağlı danışıqlar aparıblar. Lakin fikir ayrılıqları səbəbindən proses bir neçə dəfə dayandırılıb. 2016-cı ildən danışıqlar prosesi, xüsusən də, Türkiyənin qaçqın axınını öz ərazisində saxlamaqla Avropanı miqrasiya böhranından çıxarmaqda göstərdiyi yardıma görə bərpa olunsa da, son 9 il ərzində Ankara danışıqlar prosesini başa çatdıra bilməyib. İsveçin NATO yolunu açmaqla isə Türkiyə yenidən Aİ üzvü olmağa ümidlənsə də, ortada nəticə yoxdur.

Türkiyənin iqtisadi inkişafına gəldikdə isə son bir ilin statistikasına nəzər salaq: 2024-cü ildə Türkiyə 3,2 faiz iqtisadi böyüməyə nail olub - 2024-cü ildə Türkiyə iqtisadiyyatının həcmi 1,32 trilyon dollara yüksəlib. Adambaşına düşən ÜDM 2024-cü ildə cari qiymətlərlə 507 615 TL, ABŞ dolları ilə isə 15 463 olaraq hesablanıb. Türkiyənin ticarət dövriyyəsi 605,88 milyard ABŞ dolları olub. 2024-cü ildə Türkiyə sabit kapital investisiyalarında 6,1 faiz artım nümayiş etdirib. Türkiyə dövlət büdcəsi gəlirlərində 66,5 faiz, dövlət büdcəsi xərclərində isə 63,6 faiz artım əldə edib.

Belə olan halda sual yaranır: nəyə görə Aİ başqa ölkələri daha "uyğun" hesab edir? Siyasi texnoloqların fikrincə, bu, sırf siyasi seçimdir. Avropa İttifaqı hazırda öz təhlükəsizlik buferini genişləndirməyə çalışır. Ukraynanın daxil edilməsi Rusiya qarşısında siyasi baryer yaratmaq məqsədi daşıyır. Moldova da eyni səbəblə prioritetdədir. Türkiyə məsələsinə gəlincə, bu dövlətin regional və geosiyasi çəkisi Aİ-nin struktur balansını poza bilər. Brüssel üçün "idarəolunan üzvlər" konsepsiyası daha uyğundur. Türkiyə isə öz milli maraqları çərçivəsində müstəqil siyasət yürüdür və bu, Aİ-nin "vahid qərar" modelinə uyğun gəlmir.

### Yeni Avropa: yenidənqurma, yoxsa daxili parçalanmaların nəticəsi...

Siyasi reallıqlar göstərir ki, Avropa İttifaqı artıq ənənəvi "vahid Qərb" obrazından kənarlaşıb. Vaşinqton ilə Brüssel arasında bir çox məsələlərdə: o cümlədən təhlükəsizlik, enerji və Şərqlə əməkdaşlıq məsələlərində fikir ayrılıqları dərinləşir. Aİ-nin bu şəraitdə elan etdiyi "genişlənmə" prioritet əslində "yenidənqurma" mərhələsinin başlanğıcıdır. Genişlənmə bu yenilənmənin alətinə çevrilib. Avropa yeni üzvlər hesabına iqtisadi dinamizmini bərpa etmək, büdcə resurslarını artırmaq və geosiyasi təsir gücünü saxlamaq istəyir. Çünki hazırda belə daxildə ciddi dilemmalar mövcuddur. Məsələn:

- İnteqrasiya dərinləşdikcə fərqli milli maraqlar toqquşur;
- Səsvermə mexanizmlərində "bloklayan azlıq" problemi artır;
- Populist və sağçı qüvvələrin yüksəlişi birliyə təhlükə yaradır.

Bunu təsdiqləyən başqa bir misal: Macarıstanın baş naziri Viktor Orban Belçikada keçirilən konfransda Ukrayna prezidenti Volodimir Zelenskinin tənqidlərinə sərt cavab verib. Macarıstan hökumətinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, Orban deyib: "Ukrayna nə Macarıstanı qoruyur, nə də ona qarşı hansısa təhlükənin qarşısını alır, buna görə Budapeşt Kiyevə borclu deyil. Biz bunu ondan istəməmişik və istəməyəcəyik. Macarıstanın təhlükəsizliyi öz ordusu və NATO tərəfindən təmin olunur - Ukrayna isə NATO üzvü deyil və yaxşı ki, deyil". Baş nazir həmçinin Ukraynanın Avropa İttifaqına üzvlüyünə kəskin şəkildə qarşı çıxdığını bir daha vurğulayıb: "Aİ-yə üzvlük məsələsi yalnız bütün üzv dövlətlərin yekdil qərarı ilə həll olunur. Macarıstan Ukraynanın Aİ-yə üzvlüyünü dəstəkləmir və dəstəkləməyəcək. Bu, müharibəni Avropaya gətirər və macarların pulunu Ukraynaya yönəldər".

Bu fakt bir çox mətləbləri aydınlığa qovuşdurur: demək ki, Aİ ənənəvi prioritetlərdən kənar yeni genişlənmə standartları formalaşdırır. Məqsəd - gələcəkdə daxili qərarların bloklanmasının qarşısını almaq, vahid siyasi məkan yaratmaqdır. Bu isə o deməkdir ki, Aİ yeni üzvləri yalnız iqtisadi deyil, həm də siyasi uyğunluq səviyyəsinə görə seçəcək. Yeni Avropa artıq "tətbiq olunan dəyərlər" yox, "idarə olunan üzvlər" modelini əsas götürür.

### Genişlənmənin prioriteti: "fikir yaxınlığı", yoxsa "siyasi tabeçilik"

Beləliklə, görünən odur ki, Avropa İttifaqı genişlənmə ilə eyni zamanda özünü yenidən təsdiqləmək istəyir. Qlobal nizamın dəyişdiyi, qütblər arasında iqtisadi-siyasi qarşıdurmanın artdığı bir vaxtda Avropa "strateji muxtariyyət" ideyasını reallaşdırmaq niyyətindədir. Lakin bu prosesin səmimiyyəti sual altındadır. Türkiyə kimi böyük gücün kənarda qalması, Serbiyanın təcridi, başqa dövlətlərin sürətli "siyasi üzvlüyə" hazırlanması Aİ-nin dəyərlərini selektiv tətbiq etdiyini göstərir. Bu mənzərə həm də bir həqiqəti üzə çıxarır: Avropa İttifaqı genişlənir, amma real mənada birləşmir. İttifaq daha çox "fikir yaxınlığı"na deyil, "siyasi tabeçiliyə" üstünlük verir.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# 99 illik səsin tarixi...

## Azərbaycan radiosunun yayıma başladığı gündür

“Danışır Bakı!”-1926-cı ilin noyabr ayında paytaxt küçələrində və meydanlarında qurulmuş reproduktorlardan eşidilən səs... 99 il əvvəl - 1926-cı il noyabrın 6-da Azərbaycanda ilk dəfə radio verilişlərinin yayımına başlanıb. Elə bu tarixdən radio insanların dostuna, sirdaşına, yol yoldaşına çevrildi.

Radionun fəaliyyətə başlaması ölkəmizin media tarixində həm də teleradionun yaranması kimi qəbul olunur. Radio və televiziyanın fəaliyyətə başlamasının maraqlı bir tarixçəsi var. “Danışır Bakı!” səsinə yalnız Bakıda deyil, paytaxtın ətraf yaşayış məntəqələrində də vətəndaşların qulaq asmaları üçün imkanlar yaradılmışdı. Həmin illər üçün bu, xalqın həyatında çox böyük bir yenilik hesab olunurdu. Radionun ilk azərbaycanlı kişi diktoru Azərbaycan Politexnik institutunun tələbəsi İsmayıl Əliyevov, ilk azərbaycanlı qadın diktoru isə Azərbaycan Dövlət Darülfününun hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olub. 1927-ci ilin payızında İsmayıl Əliyevov baş diktor vəzifəsinə təyin edilib.

Azərbaycan radiosunun inkişaf etdiyi sonrakı mərhələdə isə Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Nizami Məmmədov, Sabutay Quliyev, Ramiz Mustafayev kimi peşəkar diktorlar ölkəmizin radio məkanına öz zəngin töhfələrini veriblər. Bakı Televiziya Mərkəzinin tikintisinə isə 1953-cü ildə başlanılıb. 3 il sonra isə Bakıda televiziya yayımı üçün polad bloklardan yığılmış ilk 180 metrlik qüllə qurulub.

1956-cı il fevralın 14-də Azərbaycan Televiziyası fəaliyyətə başlayıb. 1973-cü ildən başlayaraq paytaxtda televiziya verilişləri rəngli təsvirlərlə yayımlanıb. Respublikada yayımlanan verilişlərin sayını artırmaq üçün yeni Teleqüllənin tikintisinə isə 1981-ci ildə start verilib. 1996-cı ildə Teleqüllə istismara verilib. 2008-ci ildə isə Teleqüllə kompleksində əsaslı yenidənqurma işləri həyata keçirilməyə başlanılıb.

Görülən tədbirlər nəticəsində kompleks ən qabaqcıl rabitə avadanlıqları ilə təchiz olunub. Ümumi hündürlüyü 310 metr, çəkisi 40 min ton olan Teleqüllə dəniz səviyyəsindən 136 metr hündürlükdə yerləşir. Kompleksin beton hissəsi 200 metr, metal hissəsi isə 110 metrdir. Qüllənin üzərində milli ornamentli 4 şəbəkə yerləşir ki, bunların hər biri bir qütbə istiqamətlənib.

Hazırda ölkə ərazisində radio proqramları orta dalğa (AM radio 526,5-1606,5kHs) və UQD dalğa diapazonundakı tezliklərdə (FM radio 88 MHs-108 MHs), televiziya proqramları isə PAL, D/K standartında və III, IV və V televiziya diapazonlarında yayımlanır. Qeyd edək ki, rəqəmli televiziya yayım şəbəkəsi DVB-T standartı üzrə qurulub.

Orta dalğalarda “Azərbaycan” radiosu və müxtəlif dillərdə yayımlanan “Xaricə yayım” radio proqramları yayımlanır. Orta dalğa radio yayımlarının texnoloji xüsusiyyətlərindən asılı olaraq, bu dalğalarda yayımlanan proqramlar nəinki ölkə daxilində, hətta xarici ölkələrdə də qəbul oluna bilir.

Uzun illərdən bəri Azərbaycan televiziyası mühüm bir yol keçib. Qara-ağ televizor ekranlarından bu günkü rəngli, yüksək keyfiyyətli və onlayn yayımlara qədər olan bu inkişaf həm texnologiyanın, həm də sözün, səsin, insan ruhunun inkişafıdır. Televiziya və radio sadəcə informasiya mənbəyi deyil, cəmiyyətin yaddaşı, mənəvi güzgüsüdür. Hər bir xəbər, hər bir mahnı, hər bir sənədli film xalqın ruhundan doğur, onun düşüncəsini, sevincini və kədərini əks etdirir.

Azərbaycan radiosu da illər boyu xalqın həm səsi, həm də dərd ortağı olub. Müharibə illərində ümidin səsi, müstəqillik dönəmində azad sözün tribunası, bu gün isə mədəniyyətin və maarifin daşıyıcısı kimi fəaliyyət göstərir.

Ölkəmizdə radio və televiziya sahəsinin inkişafı hər zaman dövlətin diqqət mərkəzində saxlanılmaqdadır. Bu sahədə inkişafın təmin edilməsi istiqamətində hər zaman lazımi tədbirlər görülməkdədir. Əlamətdar gün münasibətilə radio və televiziya sahəsində fəaliyyət göstərən həmkarlarımızı təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzu edirik!

*Yeganə*

# Görünməyən cəbhə: Ekoloji müharibə...

## Güllə səsi altında susan təbiət



Müharibə barıt qoxusu, yanmış torpaqlar, dağıdılmış şəhərlər və sükuta bürünmüş insan taleləri deməkdir. Lakin çox zaman unudulur ki, bu fəlakət təkcə insanları deyil, təbiətin özünü də qan içində boğur. Güllə səsi ilə diksinən quşlar, bombaların altında məhv olan meşələr, kimyəvi silahların zəhərinə bürünən torpaqlar... Bütün bunlar müharibənin görünməyən, amma dərin izlər buraxan yaralarıdır.

Noyabrın 6-sı Müharibə və Silahlı Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısının Alınması Beynəlxalq Günü kimi qeyd olunur. Bu əlamətdar gün Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 5 noyabr 2001-ci ildə müəyyən edilib.

Ölkəmiz üçün bu günün mənası xüsusilə dərindir. Təəssüf ki, ekoloji terror Azərbaycandan yan keçməyib, 30 ilə yaxın davam edən Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının təbiətinə, bioloji müxtəlifliyinə, su hövzələrinə, ümumilikdə, işğal altında olan ərazilərin ekologiyasına ciddi ziyan dəyib, ətraf mühitin məhvi və ciddi zərər görməsi ilə nəticələnən fəsadlara gətirib çıxarıb.

Ermənistan Respublikası silahlı qüvvələrinin hərbi fəaliyyəti və qadağan olunmuş silahlardan istifadəsi nəticəsində ətraf mühit fiziki və kimyəvi çirklənməyə məruz qalmaqla yanaşı, burada mövcud olan müxtəlif nadir bitki və heyvan növləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan vurulub. Təmiz su mənbələrinin kimyəvi çirklənməsi nəticəsində çay və göllərdə özü-özünü təmizləmə prosesi dayanıb, nəticədə su hövzələri bütün canlılar üçün zərərli, ölü bir zonaya çevrilib.

Təsadüfi deyil ki, BMT Baş Assambleyası tərəfindən hələ 2006-cı ildə qəbul edilmiş “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı Qətnaməsində işğal altında olan Azərbaycan torpaqlarında törədilmiş yanğınların regionun ekoloji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi məsələsi qaldırılmışdı. Bununla yanaşı, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2085 nömrəli qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunub.

Bu müddət ərzində Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal altında saxlanılan ərazilərində təbii sərvətlər talan edilmiş, 163 faydalı qazıntı yatağı, o cümlədən qızıl, civə, mis, qurğuşun, sink, daş kömür, meşə örtüyü, nadir ağaclar və digər sərvətlər qanunsuz istismara məruz qalıb.

Uzun illər işğal altında qalan ərazilərimizdə baş verənlər ekoloji terror nümunələridir. Bu gün həmin torpaqlarda bərpa və yenidənqurma işləri aparılır, yaşıl enerji zonaları yaradılır, ağaclar əkilir. Bu, təkcə iqtisadi yox, ekoloji ədalətin bərpasıdır.

*Yeganə BAYRAMOVA*

# Dünyanın bu günədək uğurla fəaliyyət göstərən beş ən qədim şirkəti




Müasir biznes dünyasında, bir çox startapların beşillik fəaliyyət dövrünü belə keçə bilmədiyi şəraitdə, əsrlərlə, bəzən isə min ildən artıq dövrdə fəaliyyətini davam etdirən şirkətlər mövcuddur. Bu müəssisələr müharibələri, epidemiyaları, iqtisadi böhranları və texnoloji inqilabları geridə qoyaraq, bu gün də aktuallığını qoruyub saxlayır.

AZƏRTAC “World Atlas” portalına istinadla bu günədək fasiləsiz fəaliyyət göstərən beş ən qədim şirkəti təqdim edir:

1. “The Royal Mint” - Böyük Britaniya (əsası 886-cı ildə qoyulub).

886-cı ildə Böyük Alfredin hakimiyyəti dövründə yaradılan Kral Pul Zərbxanası (“The Royal Mint”) artıq 1100 ildən çoxdur ki, Böyük Britaniyanın rəsmi sikkə istehsalçısı sayılır. Əvvəllər London Qalasının (“Tower of London”) ərazisində yerləşən müəssisə, bu gün Uelsdə Llantrisant şəhərində mühafizə olunan kompleksdə fəaliyyət göstərir.

Müasir dövrdə “Royal Mint”in fəaliyyəti təkcə dövriyyə sikkələrinin istehsalı ilə məhdudlaşmır. Fabrik həm xatirə və kolleksiya sikkələri buraxır, həm də investisiya qızılı istehsal edir və hətta qızıl örtüklü yığım məhsulları təklif edir.

Yalnız funksional istehsaldan dəbdəbəli məhsulların istehsalına qədər transformasiya etmək bacarığı şirkətə, nağd pul istifadəsinin getdikcə azalmaqda olduğu dövrdə də aktuallığını qorumağa imkan verir.

2. “Tanaka-Iga” - Yaponiya (əsası 885-ci ildə qoyulub).

“Tanaka-Iga” ailə şirkətidir və 885-ci ildən bəri Butsudan adlanan buddist ev məbədlərinin istehsalı ilə məşğuldur. Oyma taxtadan hazırlanan bu məbədlər bir çox yapon evlərində dua və əcdadlara ehtiram üçün mərkəzi elementdir.

Təxminən 1200 illik mövcudluğu ərzində “Tanaka-Iga” ənənəvi sənətkarlığa sadiq qalmaqla yanaşı, müasir alət və texnologiyalardan da istifadə edərək bazar tələbatını qarşılayır. Bu gün şirkət sadəcə bir istehsal müəssisəsi deyil, həm də yapon incəsənəti və mənəvi ənənələrin qoruyucusu sayılır.

3. “Staffelter Hof” - Almaniya (əsası 862-ci ildə qoyulub).

Mozel vadisində yerləşən “Staffelter Hof”, dünyanın ən qədim şərab istehsalçılarından biridir. 862-ci ildə monastır üzüm bağları kimi yaradılan bu müəssisə, bu gün də yüksək keyfiyyətli “Rislinq” (Riesling) şərablarının istehsalını davam etdirir.

Şərab zavodu həm də turistik məkan kimi tanınır, belə ki, ziyarətçilərə dequstatorluq, yaşayış və ekskursiyalar təklif olunur, burada qonaqlar minillik tarixi olan şərabçılıq ənənəsi ilə yaxından tanış olurlar. “Staffelter Hof”un davamlı fəaliyyəti göstərir ki, tarixi brendlər öz irslərinə söykənərək qlobal auditoriyanı cəlb edə bilirlər.

4. “St. Peter Stiftskulinarium” - Avstriya (əsası 803-cü ildə qoyulub).

803-cü ildə əsası qoyulmuş əfsanəvi “St. Peter Stiftskulinarium” restoranı Zaltsburqdakı Müqəddəs Pyotr Abbatlığında yerləşir və Avropanın ən qədim restoranı hesab olunur.

1200 ildən artıq müddətdə bu restoran kralları, musiqiçiləri və səyyahları qəbul edib, hətta rəvayətə görə, burada Böyük Karl da qonaq olub.

Bu gün “St. Peter Stiftskulinarium” sadəcə bir restoran deyil, burada tarix, memarlıq və Avstriya mətbəx ənənələri birləşir. Qonaqlar barokko zallarında şam işığında nahardan həzz alaraq, dünyanın ən unikal və xüsusi atmosferi olan restoran təcrübələrindən birini yaşayırlar.

5. “Genda Shigyo” - Yaponiya (əsası 771-ci ildə qoyulub).

771-ci ildə Kiotoda yaradılan “Genda Shigyo” şirkəti dini festivallar və mərasimlərdə istifadə olunan sərgi və mərasim kağız məhsullarının istehsalı üzrə ixtisaslaşıb. Onun məhsulları toy mərasimlərində, çay mərasimlərində və sinto ayinlərində mühüm yer tutur.

“Genda Shigyon”un əsas özəlliyi 1200 ildən artıq yaşı olan ənənəvi kağız istehsalı texnikalarını qoruyub saxlamasıdır. Şirkət, həmçinin elmi master-klaslar keçirir və bu sənətkarlıq biliklərini gələcək nəsillərə ötürür. Beləliklə, “Genda Shigyo” təkcə kommersiya müəssisəsi deyil, həm də onun yapon mədəniyyətinin davamlılığını təmin edən mühüm mədəni institut kimi fəaliyyət göstərir.

# Azercell-in dəstəyilə “YAŞAT” Fondu şəhid övladları üçün II İntellektual Marafonunu təşkil edib

## Zəfər Gününün 5-ci ildönümü münasibətilə 50-yə yaxın şəhid övladı Qubada təlimlərə qatıldı



1-3 noyabr 2025-ci il tarixlərində “YAŞAT” Fondunun təşkilatçılığı və “Azercell Telekom” MMC-nin dəstəyi ilə Quba şəhərində şəhid övladları üçün 2-ci İntellektual Marafon keçirilib.

Vətən müharibəsində qazanılan Zəfərin beş illiyinə həsr olunan bu təşəbbüs 16-23 yaş aralığındakı 50-yə yaxın şəhid övladını bir araya gətirib. Marafonun əsas məqsədi gənclərin intellektual və sosial bacarıqlarının inkişafına töhfə vermək, eləcə də onların arasında bilik və təcrübə mübadiləsini təşviq etmək olub.

Marafon çərçivəsində Azercell kibertəhlükəsizlik mövzusunda maarifləndirici təlim sessiyası keçirib. Şirkətin mütəxəssisləri gənclərlə rəqəmsal mühitdə təhlükəsiz davranış qaydaları, fərdi məlumatların qorunması və onlayn təhdidlərdən müdafiə yolları barədə biliklərini bölüşdürüb. Bu təşəbbüs Azercell-in gənclər arasında rəqəmsal savadlılığın artırılması və təhlükəsiz internet mühitinin formalaşdırılması istiqamətində həyata keçirdiyi silsilə sosial layihələrin davamı olub.

Marafon müddətində müxtəlif intellektual oyunlar, bilik yarışları və əyləncə proqramları təşkil olunub. Qaliblər və bütün iştirakçılar mükafat və hədiyyələrlə təltif edilib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4961
Sifariş: 2261
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova